# HACIQABUL

№ 20
(679)

12 dekabr
2017-ci il

Hacıqabul rayon İcra Hakimiyyətinin qəzeti


# Hər birimizə nümunə olan Böyük Azərbaycanlı





***Məlumdur ki, tarixi şəxsiyyətlər, o cümlədən liderlər xidmətlərinin miqyasına görə fərqli səviyyədə qəbul olunurlar. Elələri var ki, yalnız öz doğma vətənində tanınır, hörmətlə yad edilir. Elə simalar da var ki, onlar zaman və məkan anlayışına sığmayaraq öz xalqının təkcə sevimlisinə yox, həm də idealına çevrilir. Ulu öndər Heydər Əliyevin bütün sahələrdə qurucu istiqamət üzrə təşəbbüskar aktivliyi, strateji hədəflərə doğru qətiyyətli irəliləyişi, Azərbaycanın perspektivləri üçün yorulmaz fəaliyyəti onu başqaları üçün də örnək simaya çevirmişdir.***

Heydər Əliyev özünün çoxillik yorulmaz titanik fəaliyyəti ilə həm Azərbaycan dövlətinin, həm də Azərbaycan dilinin nüfuzunu yüksəltmişdir. Məhz onun müdrik rəhbərliyi ilə Azərbaycan dili dünyanın siyasi xəritəsində öz yerini tutmuş dövlətimizin rəsmi dilinə çevrilmişdir.

Xalqımızın ümummilli lideri Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin təməlini qoymaqla müqəddəs bir missiyanı gerçəkliyə çevirib: milliliklə dövlətçiliyi bir-birinə qovuşdurub, onların sarsılmaz vəhdətini təmin edib. Dünyadakı hər bir xalqın arzusunda olduğu bu əlçatmaz ideal Azərbaycan adlı məkanda da reallaşdı.

Azərbaycanın müstəqillik yolunda kövrək addımlarla irəlilədiyi ilk illərdə ulu öndər Heydər Əliyevin ölkənin sabitliyi, vahidliyi və bütövlüyünü təmin etməyin ən uğurlu modeli kimi azərbaycançılığı dövlət siyasəti halına gətirməsi Azərbaycan dövlətçilik tarixində imza atılan dönüş xarakterli uğurlardan sayılır.

Ulu öndər xalqın milli nailiyyət simvoluna çevrilmiş tarixi şəxsiyyətdir. Bu uğurların ən mühümü onun qurub yaratdığı müstəqil Azərbaycan dövlətidir. Ümummilli lider şərəfli ömür yolu ilə tərcümeyi-halını böyük bir xalqın tarixinə çevirməyi bacarmış dünya miqyaslı şəxsiyyətdir. Yer üzünün ən müxtəlif qütblərində yaşayan milyonlarla soydaşımızı milli ideyalar ətrafında bir araya gətirən rəmzdir.

Heydər Əliyev dünyanın ən böyük azərbaycanlısıdır. Bu gün hər birimiz qürurla müşahidə edirik ki, Heydər Əliyevin milli dövlətçilik ideyalarını ən yüksək səviyyəyə çatdıraraq tarixin möhtəşəm Azərbaycanını yaradan İlham Əliyev də dünyanın qüdrətli liderləri silsiləsində öz adını şərəflə həkk etdirib.

Heydər Əliyev sovet dövrünün yetişdirdiyi dövlət xadimi idi. Parlaq bir siyasi liderin formalaşması üçün lazım olan bütün mərhələləri, sınaqları, çətinlikləri keçmişdi.

Bu gün doğma Azərbaycanımız inkişaf edir, gələcəyə doğru böyük addımlarla irəliləyir. Onun getdiyi yol isə ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi yoldur. Cismani yoxluğundan 14 il keçsə də xalq öz xilaskarını unutmayıb, unutmayacaq da. Çünki Heydər Əliyev hər birimizə nümunə olan Böyük Azərbaycanlıdır.

Dekabrın 12-də ümummilli lider Heydər Əliyevin vəfatının 14-cü ildönümündə dünya şöhrətli dövlət xadiminə ümumxalq məhəbbətinin və hörmətinin bir daha şahidi olduq. Azərbaycanın hər yerində olduğu kimi Hacıqabul rayonunda da ulu öndərin abidəsini ziyarət etməyə insanlar gəlir, abidə üzərinə gül-çiçək dəstələri düzür, dahi şəxsiyyətə ehtiramlarını bildirirdilər.

Səhər saat 10 radələrində başlanan mərasim günün ikinci yarısına qədər davam etdi. Əvvəlcə rayon İcra Hakimiyyətinin Başçısı Əhməd Muxtarov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri abidə önünə tər qızıl gül dəstələri düzdülər. Sonra idarə, müəssisə, təşkilat rəhbərləri, əmək kollektivləri, hüquq-mühafizə orqanlarının əməkdaşları, müharibə və əmək veteranları, gənclər, bir sözlə yüzlərlə insan abidənin önündən keçərək Azərbaycanın xilaskarı, dövlətimizin qurucusuna dərin ehtiramlarını bildirdilər.

Bu sadəcə bir mərasim deyildi, bu dünya miqyasında tanınan görkəmli rəhbərin vaxtilə ölkə qarşısındakı xidmətlərinə, o cümlədən Hacıqabul və hacıqabullulara yaratdığı şəraitə verilən qiymət və hörmətin parlaq təzahürü idi.

Anım günü bir daha sübut etdi ki, nə qədər Azərbaycan var, ulu öndər Heydər Əliyevin əziz xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaqdır.

***"Hacıqabul"***

# Tarlalarda pambıq yığımı davam edir



***Dekabrın 11-dək rayon üzrə pambıq qəbulu məntəqələrinə fiziki çəkidə 1040,2 ton məhsul təhvil verilib. Bu ötən ilin müvafiq dövrü ilə müqayisədə 119 ton çoxdur. Belə ki, keçən ilin bu günkü tarixinə kimi 921, 2 kiloqram məhsul tədarük edilmişdi.***

Qeyd edək ki, bu il ötən illə müqayisədə 678 hektar çox, yeni 1204 hektar sahədə çiyid əkilib.

Qeyri-neft sektorunun, xüsusən də kənd təsərrüfatına bağlı ənənəvi sahələrin inkişaf etdirilməsi istiqamətində atılan addımlar artıq müsbət nəticəsini verməkdədir. Bu səmərəlilik hər regionun ab-havasından asılı olaraq əziyyətə sinə gərməyi bacaran, əlinin qabarına, alnının tərinə güvənən, əldə etdiyi məhsulun mənfəətini görüb onun sevincini yaşaya bilən hər kəs üçün var.

Özünəməxsusluğu, zəhmətkeş insanları ilə seçilən Hacıqabul rayonu da belə rayonlardandır.

Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən pambıqçılığın inkişaf etdirilməsinin mühüm vəzifə kimi qarşıya qoyulmasından sonra bu çağırışa ilk səs verənlərdən biri də hacıqabullular oldu. Həmin vəzifələrin icrası məqsədilə rayonda əməli işlər görülməyə başladı. Ötən il rayonun təsərrüfatlarında 526 hektar sahədə pambıq əkildi və 1000 tona yaxın pambıq yığılaraq təhvil verildi. Bu il isə əkin sahələri genişləndirilərək 1200 hektara çatdırılmışdır. Keyfiyyətli toxumun əkilməsi, aqrotexniki qulluğun göstərilməsi səmərəsini verdi. Hazırda tarlalarda pambıq yığımı davam edir. Arabir təbiət şıltaqlıq etsə də yenə də insanlar tarlalarda bol məhsulu itkisiz yığmağa çalışırlar.

## Pambıq tədarükündə fərqlənənlər

***(Dekabrın 11-nə olan məlumat)***

1. Səadət Mirzəyeva (Qarasu kəndi) 161,2 ton
2. Murad Abdullayev (Qarasu kəndi) 110,6 ton
3. Əlifağa Səfərov (Padar qəsəbəsi) 74 ton
4. Yunis Gözəlov (Padar qəsəbəsi) 244 ton
5. Natiq Dostəliyev (Meyniman kəndi) 90 ton
6. Yengibar Zərbəliyev (Meyniman kəndi) 24 ton
7. İlqar Mirzəyev (Əlětli kəndi) 21,2 ton
8. İsmayıl ismayılov (Abdulabad kəndi) 17,3 ton
9. Famil Cəfərov (Meyniman kəndi) 9,8 ton
10. Habil Qarayev (Əlětli kəndi) 5,5 ton

# Xalqımızın milli iftixarı



***Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, xalqımızın Ümummilli lideri Heydər Əliyevin vəfatından 14 il keçir. Bu dahi insan Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, milli lider və xalq məhəbbətini qazanan öndər kimi qalmışdır. Xalqımızın tarixi taleyində, mənəvi, siyasi və ictimai həyatında, dövlət quruculuğunda onun qədər misilsiz xidmətlər göstərən ikinci dövlət adamı tapmaq mümkün deyildir. Bu mənada o, xalqımızın milli iftixarı, ürəklərimizdə özünə yer tapan milli liderimiz, güvənc yerimiz, qürur duyduğumuz və arxa bildiyimiz böyük Azərbaycanlı idi.***

Bu gün bütün Azərbaycan xalqı milli liderimiz Heydər Əliyevin əziz xatirəsini yad edir. Eləcə də, bütün gün ərzində rayonumuzun idarə və təşkilatlarının əmək kollektivləri, sakinlər ümummilli liderin adını daşıyan parkda ucaldılmış abidəsini ziyarət edərək önünə gül-çiçək dəstələri qoyurlar.

Rayon İcra Hakimiyyətinin başçısı Əhməd Muxtarov abidə qarşısına gül-çiçək dəstələri qoyduqdan sonra rayon Heydər Əliyev Mərkəzində də oldu.

# Heydər Əliyev Akademiyasının növbəti dərsi keçirilmişdir

***Rayon Heydər Əliyev Mərkəzində "Heydər Əliyev Akademiyası" nın növbəti dərsi keçirilmişdir. Bu dəfə dərs Azərbaycan Respiblikasının Prezidenti yanında Bilik Fondu və rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Cinayət qanunvericiliyinə edilmiş əlavə və dəyişikliklər ölkə Prezidenti İlham Əliyevin humanist cəza siyasəti kontekstində" mövzusunda keçirilmişdir.***



Əvvəlcə rayon İcra Hakimiyyətinin I müavini Aslan Səmədov çıxış edərək qeyd etmişdir ki, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev bu ilin fevralında penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza tədbirlərinin tətbiqinin genişləndirilməsi ilə bağlı sərəncam imzalayıb. Bu sərəncam ölkədə həyata keçirilən məhkəmə-hüquq siyasətinin məntiqi davamı və Azərbaycanda bütövlükdə insan hüquqlarına həssas və hörmətlə yanaşmanın göstəricisidir.

Sonra Milli Məclisin İnzibati və hərbi qanunvericilik şöbəsinin baş məsləhətçisi Elnur Nuriyev geniş məruzə ilə çıxış etmişdir. Çıxışdan sonra Elnur Nuriyev mövzu ilə bağlı auditoriyanı maraqlandıran suallara cavab vermişdir.

***Aytən Zülfəliyeva, rayon Heydər Əliyev Mərkəzinin direktoru***

# Qatarların hərəkətinin intensivliyi üçün




***"Dəmiryolları ölkənin qan damarlarıdır". Obrazlı dillə deyilmiş bu ifadənin reallığını, gerçəkliyini bizlərdən hər birimiz öz həyatımızda hiss edirik.***

Hacıqabul rayonu Azərbaycanın iqtisadi və strateji əhəmiyyət daşıyan mühüm dəmiryol məntəqələrinin və obyektlərinin yerləşdiyi ərazi olduğundan şəhərimizin sakinləri hər gün vaqonlarda tonlarla kənd təsərrüfatı, sənaye və tikinti mallarının ölkənin, MDB ölkələrinin müxtəlif bölgələrinə daşındığını görürlər və bu bizdə qürur doğurur.Bundan əlavə uzun illərdən bəridir ki, həm də hacıqabullular sərnişin kimi də dəmiryolundan istifadə edirlər.Bu baxımdan deyə bilərik ki, dəmiryolu bizim həyatımıza daxil olmuşdur.

Azərbaycan Dəmiryolları QSC 16 saylı Hacıqabul Yol Sahəsinin əməkçiləri ilin 12 ayı hərəkətin ahəngdarlığını, rahatlığını təmin etmək üçün yollarda təmir işləri aparırlar. Neçə illərdir ki, müəssisəyə təcrübəli dəmiryolçu Fəzail Hüseynov rəhbərlik edir.Onunla söhbət əsnasında qeyd etdi ki, sahəmizin kollektivi Atbulaq stansiyasından Sığırlı stansiyasına kimi 9 məntəqədə cari təmir işləri həyata keçirirlər. Yol ustaları Elman Məmmədyarov, Mübariz Manafov, Əkrəm Şükürov, Anar Bəndəliyev stansiyalar arasındakı ərazidə səliqə-sahman yaradılması, yol boyu aparılan təmir işlərində fəallıq göstərirlər. Təmirçi fəhlələrdən Asəf Məmmədov, Tahir Niftəliyev, Zaur Cavadov, Ramiz Cəbrayılov, Rüfət Babayev, Malik Qoçəliyev, İlqar Dadaşov, Mahir Hüseynov, Kirman Qoçəliyev, Abdul Həşimov, Elxan Aslanov, Gülbala Kərimov, yol ustası Hüseynağa Cəfərov yol ayrıclarını təmizləyir, rəngləyir, xüsusi aparatlarla yol ayrıclarını şablondan keçirir, gen məsafələri yığır, qatarların hərəkətinin təhlükəsizliyi üçün yolları saz vəziyyətə gətirirlər.

Azərbaycanın Dəmiryolları həmişə ulu öndər Heydər Əliyevin, hazırda möhtərəm Prezidentimiz İlham Əliyevin diqqət mərkəzində olmuş və dəmiryolunun inkişafına daim diqqət və qayğı göstərmişlər.

Bu yaxınlarda Bakı-Tbilisi-Qars dəmiryolunun istifadəyə verilməsi Prezident İlham Əliyevin Azərbaycan iqtisadiyyatının, dəmiryolunun dinamik inkişafı, ümumən Azərbaycan vətəndaşının güzəranının, rifahının yaxşılaşdırılması üçün atdığı uğurlu addımdır.

İki ölkənin Prezidenti, üç ölkənin Baş nazirinin iştirak etdiyi Bakı-Tbilisi-Qars dəmiryolunun istifadəyə verilməsindən bir ay öncə sahəmizin əməkçiləri Baş Ələt stansiyasına ezam olunmuş, həmin ərazidə təmizlik, abadlıq işləri aparmışlar.

Biz də işgüzar dəmiryolçularımıza-16 saylı Hacıqabul Yol Sahəsinin kollektivinə bundan sonra da işlərində uğurlar, dəmiryolunda dəmir intizam arzulayırıq.

***Nazim Fətixanoğlu***



# Azərbaycan ədliyyəsi inkişaf yolunda

***Artıq 17 ildir ki, ədliyyə işçiləri ümummilli liderimiz tərəfindən təsis edilmiş peşə bayramını böyük ruh yüksəkliyi ilə qeyd edirlər. Hər il peşə bayramında ədliyyə işçiləri müstəqil Azərbaycan dövlətinin banisi və müasir hüquq sistemimizin müəllifi olan dahi rəhbər Heydər Əliyevin əziz xatirəsini yad edir. Bu il də rayonumuzun ədliyyə işçiləri başda rayon İcra Hakimiyyətinin Başçısı Əhməd Muxtarov olmaqla ulu öndərin abidəsini ziyarət etdilər, abidə önünə tər gül dəstələri düzdülər.***

Ənənəvi olaraq Azərbaycan ədliyyəsinin keçdiyi şərəfli tarixə, görülən işlərə, qarşıda duran vəzifələrə nəzər salınır.

Müstəqil Azərbaycan dövlətinin Ədliyyə Nazirliyi ilk dəfə 1918-ci il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin təsis edildiyi gün yaradılmış, görkəmli dövlət xadimi Xəlil bəy Xasməmmədov ilk ədliyyə naziri olmuşdur. Ədliyyə Nazirliyi o dövrün çətinliyinə, maddi-texniki bazanın zəif olmasına və kadrların məhdudluğuna baxmayaraq, ölkənin ədliyyə sisteminin formalaşdırılması və inkişafı istiqamətində xeyli iş görmüşdür.

Azərbaycan Demokratik Respublikası 1920-ci il aprel ayının 28-də Rusiyanın XI Qızıl Ordusu tərəfindən işğal edildikdən sonra inqilab komitəsinin 13 may 1920-ci il tarixli qərarı ilə Ədliyyə Nazirliyi ləğv edilmiş, Xalq Ədliyyə Komissarlığı yaradılaraq, onun səlahiyyətlərinə qanunvericilik layihələrinin hazırlanması, məhkəmə işçilərinin seçilməsi, təlimatlandırılması və onlara inzibati rəhbərlik edilməsi, qanunçuluğa ali nəzarət və istintaqın aparılması daxil edilmişdir. Lakin 1930-cu ildə bu komissarlıq ləğv edilərək onun funksiyaları prokurorluq, Ali Məhkəmə, Mərkəzi İcraiyyə Komitəsinə və digər orqanlara verilmişdir.

Ədliyyə Nazirliyinin yenidən yaradılması görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana ilk dəfə rəhbərlik etdiyi dövrə təsadüf etmişdir. Belə ki, 27 oktyabr 1970-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Ədliyyə Nazirliyi təsis edilmiş və bununla da Azərbaycan ədliyyəsi tarixində yeni mərhələ başlanmışdır.

Azərbaycan yenidən dövlət müstəqilliyi əldə etdikdən və Heydər Əliyev ölkə rəhbərliyinə gəldikdən sonra ədliyyə orqanlarının işinin müasir tələblər səviyyəsinə qaldırılması üçün əsaslı tədbirlər həyata keçirilmiş, Ədliyyə Nazirliyinin cəmiyyətdə rolu və əhəmiyyəti artmış, səlahiyyət dairəsi genişlənmişdir. Respublikamızda insan hüquqlarının etibarlı müdafiəsinə xidmət edən müstəqil məhkəmə hakimiyyətinin formalaşmasına xüsusi diqqət yetirilərək, 2000-ci ildə ilk dəfə hakimlərin test üsulu ilə seçimi keçirilmiş, həmin ilin sentyabr ayından yeni 3 pilləli məhkəmə sistemi fəaliyyətə başlamışdır. Görülmüç tədbirlər nəticəsində Azərbaycan ədliyyəsi beynəlxalq norma və prinsiplərə uyğun olan inkişaf yoluna qədəm qoymuş, onun çoxşaxəli fəaliyyətinin tənzimlənməsi üçün onlarla normativ sənədlər qəbul edilmişdir.

Ədliyyə işçilərində və hakimlərdə mənəvi stimul yaradılması və cümhuriyyət dövründən başlanmış tarixi irsin qorunması məqsədilə ümummilli lider Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli Sərəncamı ilə 1918-ci ildə Azərbaycan Demokratik Respublikası Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edildiyi gün -22 noyabr ədliyyə işçilərinin peşə bayramı günü kimi müəyyən olunmuşdur. Bu bayramı ədliyyə işçiləri hər il böyük ruh yüksəkliyi ilə qeyd edirlər.

Ədliyyə orqanlarının keçdiyi şərəfli, eyni zamanda çətin və fədakar yol çoxəsrlik tariximizin əlamətdar səhifələrini təşkil edir. Siyasi quruluşundan asılı olmayaraq bütün zamanlarda ədliyyə orqanlarının, xüsusən də məhkəmələrin qanunun aliliyinə və vəzifə səlahiyyətlərinin məsuliyyəti icrasına yönələn fəaliyyəti daim insanların diqqətində olmuşdur. Müstəqil dövlətçiliyimizin qorunmasında və möhkəmləndirilməsində müstəsna rol oynamış Azərbaycan ədliyyəsinin bayramı bu baxımdan yalnız ədliyyə işçiləri üçün deyil, hər bir vətəndaşımız üçün əlamətdardır.

***"Hacıqabul"***

# Qarabağın Aprel zəfəri




***Rayon Heydər Əliyev Mərkəzində rayon İcra Hakimiyyəti və rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə gənclərin Aprel döyüşlərinin veteranları ilə görüşü keçirilmişdir.***

"Qarabağın Aprel zəfəri" adlı tədbiri açan rayon İcra Hakimiyyətinin ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Elvin Şıxəliyev Aprel döyüşlərində yenilməz ordumuzun gücündən, mərd, qəhrəman Azərbaycan əsgərlərinin şücaətindən danışaraq qeyd etdi ki, 2016-cı il aprelin 1-dən 2-nə keçən gecə Azərbaycan ordusu öz doğma torpaqlarının müdafiəsinə qalxaraq uğurlu əks hücum əməliyyatı keçirdi. Ordumuz əməliyyat nəticəsində bir neçə strateji yüksəkliyi, məntəqəni ələ keçirdi, 2 min hektar işğal altında olan torpaqlarımız düşmən tapdağından azad edildi. Lələtəpə yüksəkliyi, Seysulan, Cocuq Mərcanlı, Gülüstan kəndləri və bir neçə yaşayış məntəqəsi və yüksəkliklər işğalçılardan azad edildi. Aprel döyüşləri bizim şanlı qələbəmizdir, dövlətimizin, ordumuzun, xalqımızın gücünü göstərən qələbədir-deyən natiq qeyd etdi ki, bu döyüşlər nəticəsində Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğaldan azad edilmiş ərazilərində bu gün Azərbaycan bayrağı dalğalanır. Bu döyüşlər onu göstərdi ki, Azərbaycan xalqı öz ərazi bütövlüyünü nəyin bahasına olursa olsun bərpa edəcəkdir. Aprel döyüşləri ordumuzun peşəkarlığını, nəyə qadir olduğunu göstərdi.

Tədbirdə rayon Gənclər və İdman İdarəsinin rəisi Saleh Ələsgərov, Qarabağ müharibəsi veteranı İntiqam Abdulov, rayon ziyalısı Mübariz Xəlilov, Aprel döyüşlərinin fəal iştirakçıları N saylı hərbi hissənin döyüş maşını komandiri, gizir, "Azərbaycan bayrağı" ordenli Tahir Misirxanov və "Şücaətə görə" medalı ilə təltif olunmuş Rizvan Qarayev çıxış edərək Aprel döyüşlərində Azərbaycan ordusunun yenilməzliyindən danışdılar. Qeyd olundu ki, bu gün Azərbaycan ordusu təmas xəttində tam üstünlüyü özündə saxlayır. Həm peşəkarlıq, həm də vətənpərvərlik ruhu baxımından Aprel döyüşləri bir daha göstərdi ki, Azərbaycan xalqı qəhrəman xalqdır. Azad olunmuş torpaqlarımızda bu gün Azərbaycan bayrağı dalğalanır, hələ də işğal altında olan torpaqlarımızda da Azərbaycan bayrağı dalğalanacaqdır.

Tədbirin sonunda Aprel döyüşlərinə həsr olunmuş videoçarx nümayiş olundu.

***"Hacıqabul"***

***Məqaləyə verdiyimiz bu ad bizim düşüncəmizin, təxəyyülümüzün məhsulu deyil. Vaxtı ilə "Hacıqabul" qəzetində bir yerdə çalışdığımız, istedadlı qələm sahibi olmuş mərhum jurnalist Səxavət Məmmədovun qələmə aldığı bir yazının sərlövhəsidir. Səxavətin bir vaxtlar qələmə aldığı "Təzadın göz yaşları" bu gün onun özü üçün tökülən əsil göz yaşlarıdır. Təzadlarla yox, əsil göz yaşları ilə bu yazını qələmə alırıq. Uzun illər tanıdığın, oturub durduğun, fikirlərini bölüşdüyün bir insanın yoxluğundan yazı qələmə almaq çox çətindir.***



***O, sanki həyatla vidalaşırdı***

# TƏZADIN GÖZ YAŞLARI

Səxavət Məmmədov Qazax rayonunun Kosalar kəndində dünyaya göz açmışdı. Onunla tanışlığımız isə qəzetimizin yarandığı ilk günlərdə olmuşdu. 1991-ci ilin may ayının 6-da Hacıqabul qəzeti kiçik bir kollektivlə fəaliyyətə başladı. Cəmi 7 nəfər. Bu yeddi nəfərdən biri Səxavət Məmmədov idi. Qəzetimizin ilk sayı 1991-ci ilin 28 mayına təsadüf etdi. Çox yaxşı yadımdadır, qəzetin ilk nömrəsinin materiallarını hazırlamaq üçün hərəyə bir tapşırıq verildi. Səxavətə Udulu kəndi haqqında yazı hazırlamaq tapşırılmışdı. Səxavət yarım səhifəlik bu yazıda Udulunun 7 para kəndini, onun insanlarını, məşğuliyyətini elə ustalıqla qələmə almışdı ki, sanki illərlə bu kəndlərdə bu insanlarla yaşamış, onların sosial-məişət qayğılarını illərlə öyrənmişdir. Onda olan söz ehtiyatı, yaradıcılıq qabiliyyəti o qədər yüksək idi ki... Sonralar Səxavət Məmmədov respublikada nəşr olunan başqa bir qəzetdə fəaliyyətini davam etdirdi. Lakin biz bir kollektivdə işləyərkən o qədər mehriban idik ki, o tez-tez yenə də redaksiyaya gəlir, bizimlə görüşür, qayğılarımızdan, işlərimizdən, övladlarımızdan danışar, fikirlərimizi bölüşərdik. Bir də çox gözəl ləhcəsi var idi. Sonuncu dəfə təxminən bu ilin avqust ayının əvvəlləri idi redaksiyamıza gəlmişdi. Rəsul Mirzəyevin məzuniyyətdə olduğunu biləndə ona zəng etdi. Yenə də həmin ləhcədə "ağren alım,ə"haralardasan dedi. Hər il gedib istirahət edirsən Oğuz,Qəbələ bölgəsində, bir dəmirsən qələm dosdum var onu da götürüm bir yerdə dincələk.

Rəsul Mirzəyev:

Səxavət məzuniyyət götürərək Oğuza mənim yanıma gəldi. Bir gün gözəl füsünkar dağlara, axıb gələn şəlaləyə baxaraq "bircə oğlanlarımın toyunu da görsəydim" dedi və ürəyinin dərinliyindən gələn bir ah çəkdi. O sanki bu gözəllikdə ölümünü əvvəlcədən görürdü.

Elə bu vaxt nəvəsindən zəng gəldi.Telefonda nəvəsinin "baba, mən sənin küçüyünəm" sözlərinə qəh-qəhə çəkərək güldü, elə bil dünyanı ona verdin.Nə bileydi zalım ölüm qapını kəsib dayanıb, gözəl arzuları göz yaşları əvəz edəcək.

Çox heyif əziz dostumuz, qələm yoldaşımız özünlə bərabər dəfn etdin arzularını.

Səxavət Məmmədov jurnalist kimi ,,Hacıqabul,,qəzetində fəaliyyətə başlasa da sonralar o, "Ədalət", "Təzadlar", "Həftə içi" və s. qəzetlərdə bölgə müxbiri kimi fəaliyyət göstərmişdir.

İndi qarşımızda onun müxtəlif qəzetlərdə, müxtəlif mövzularda yazdığı məqalələr durur. Onun "Təzadın göz yaşları" sərlövhəli yazısını bir də nəzərdən keçiririk. Bu təzadlı göz yaşlarına ürəyimizin dərinliyindən süzülüb gələn kədəri də qatıb deyirik:Ruhun şad olsun əziz dost, unudulmaz qələm yoldaşımız!

***Xuraman Feyruz qızı,***
***Rəsul Mirzəyev,***
***Qara Əhmədov***

# Vətənpərvərlik müqəddəs və ülvi hissdir



***Bu günlərdə rayonumuzdan olan bir qrup Qarabağ müharibəsi veterani və əlilləri Şirvan şəhər 20 saylı texniki-peşə liseyinde müəllim və şagird kollektivi ilə görüş keçirmişdir. Liseyin direktoru İlyas Mirzəyev və pedaqoji kollektiv Hacıqabullu qonaqları səmimi qarşıladılar. Şirvan şəhər 20 saylı texniki- peşə liseyinin akt zalında keçirilən görüş gənclərimiz arasında hərbi vətənpərvərlik tərbiyəsini yüksəltmək, onlarda Vətənə məhəbbət, düşmənə nifrət hisslərini gücləndirmək məqsədilə təşkil olunmuşdu. Tədbiri açan liseyin direktoru İlyas Mirzəyev qonaqları səmimi salamladıqdan sonra bildirdi ki, Vətən torpaqlarını qorumaq, onun dar günündə harayına çatmaq hər bir gəncin, hər bir Azərbaycan vətəndaşının müqəddəs borcudur. Qarabağ torpagı ugrunda gedən döyüşlərdə liseyimizin 28 məzuni şəhid olmuşdur. Ulu öndərimiz Heydər Əliyev xalqın təkidi və istəyi ilə 1993 -cü ildə hakimiyyətə qayıtdıqan sonra ordumuzun maddi texniki bazası gücləndirildi. Xalqla iqtidar birliyi möhkəmləndi. Xalqın öz dövlətinə, ordusuna inamı artdı.1993-cü il noyabrın 4-də Heydər Əliyevin televiziya ilə gənclərimizə, xalqımıza müraciətindən sonra könüllü olaraq cəbhəyə yollanan çağırış yaşlı gənclərimizin igidliyi, sücaətləri sayəsində Tərtər, Ağdərə, Murov və digər cəbhə bölgələrində əsaslı dönüş yarandı.***

İndi Azərbaycan Prezidenti, Silahlı qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev ulu öndərin ordu quruculuğu siyasətini uğurla davam etdirir. Hacıqabul rayonu Qarabağ müharibəsi veteranları, əlilləri, şəhid ailələri ictimai birliyinin sədri Rauf Məmmədov şıxış edərək qeyd ki, Qubadlı, Laçın bölgələrində ağır döyüşlərdə iştirak etmişəm.

Öz həyatımda müharibənin dəhşətlərini hiss etmişəm, yaralanmışam. Bəli, müharibə ölüm, qan-qada deməkdir. Vətən torpaqları, doğma Azərbaycanımız müqəddəsdir. Qoy gənclərimiz elmə, təhsilə möhkəm yiyələnsinlər, müəllimlərinə ehtiramla yanaşsınlar. Vətəni çox sevsinlər, torpaqlarımızı hər an qorumağa hazır olsunlar. Hacıqabul rayon Qarabağ Vereranlar ictimai birliyinin sədri Mehman Süleymanov çıxışında qeyd etdi ki, Ağdərə, Füzuli bölgələrində vuruşan təcrübəli döyüşçü kimi qeyd etmək istəyirəm ki, orduda özbaşnalığın baş alıb getdiyi, cəbhə məğlubiyyətlərinin çoxaldığı bir vaxtda-1994-cü il mayın 12-də ümummilli liderimiz Heydər Əliyev çox müdrik qərar qəbul etdi, cəbhədə atəşkəsə nail oldu. Bu, real vəziyyətə uyğun ulu öndər tərəfindən atılmış çox düşünülmüş addım idi. C.Naxçıvanski adına Hərbi Liseyin, Heydər Əliyev adına Ali Hərbi Məktəbin və Həzi Aslanov adına Generallar Akademiyasının məzunu, Hacıqabul rayon 4 saylı orta məktəbin hərbi rəhbəri, baş leytenant Fərid Qasımov tədbirdə çıxış edərək bildirdi ki, ötən ilin Aprel döyüşləri ordumuzun əzəmət və gücünü, zabit və əsgərlərimizin hünərini, dövlət və xalqın birliyini, xalqın öz Prezidentinə inamını göstərdi. Tərtər, Füzuli, Kəlbəcər kimi qaynar döyüş bölgələrində hərbi təyyarəçi, helikopter pilotçusu olmuş İlqar Cəfərovun çıxışı görüş iştirakçılarını təsirləndirdi.

O, şagirdlərə Vətəni, doğma Azərbaycanı düşmən tapdağından azad etmək üçün birinci növbədə sağlam olmalarını, idmanla məşğul olmalarını, təhsili də, elmi bilikləri də yaxşı qavramalarını tövsiyyə etdi.

Qarabağ müharibəsi veteranı Fəxrəddin Qədirov, valideyn Əziz Kamilov gənclərimizdə hərbi vətənpərvərlik ruhunun yüksəldilməsi üçün bu cür görüşlərin əhəmiyyətindən söz açdılar.

"Vətən naminə" fəxri medalı ilə təltif olunmuş Yaqub Teymurbəyli bu günə kimi birlik üzvlərinin cəbhə bölgələrində əsgər və zabitlərimizlə keçirdikləri görüşlərdən, təhsil ocaqlarında, məktəblərdə gənclərimizlə vətənpərvərlik ruhunda apardıqları söhbətlərdən danışdı, görüşün səmərəli təşkili üçün hacıqabullu veteranlar adından liseyin direktoru İlyas Mirzəyevə öz minnətdarlığını bildirdi.

***Nazim Fətixanoğlu***

# İdmançılarımız yarışlardan uğurla qayıtmışlar



***Bu gün ölkəmizdə digər sahələrdə olduğu kimi, idman sahəsində də böyük nailiyyətlərə imza atılır. Respublikamızın bütün regionlarında müasir və beynəlxalq standartlara cavab verən idman kompleksləri idmançıların istifadəsinə verilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin idman sahəsində gördüyü işlər, idmanın bütün sahələrinə diqqət və qayğı və uğurlu idman siyasətinin nəticəsində Azərbaycanda idmanın müxtəlif növləri fəaliyyət göstərir.Azərbaycan idmançılarının beynəlxalq yarışlarda əldə etdikləri uğurlar hər birimizi fərəhləndirir və onların adları Azərbaycan İdman sahəsində öz izini qoyur. Belə idmançı-məşqçilərimizdən***

biri də qocaman məşqçi, gənc nəslin boks üzrə hazırlanmasında hələ də yorulmadan çalışan, ömrünün 55 ilini boksa həsr edən Süleyman Süleymanovdur.

12-16 noyabr 2017-ci il tarixdə Bakı şəhərində Təhsil Nazirliyinin Respublika İdman Mərkəzində Süleyman Süleymanovun xatirəsinə həsr olunmuş 2002-2003-cü il təvəllüdlü idmançılar arasında boks üzrə açıq respublika birinciliyi keçirilmişdir. Rayonumuzun Uşaq -Gənclər İdman -Şahmat Məktəbinini yetişdirmələri bu yarışda uğurla iştirak etmiş və layiqli yerlər tutmuşlar.

Riad Nəzərov I yer, İsmayıl Cavadov II yer, Vahid Mustafayev və Tural Ağayev III yerlərin qalibi olmuşlar. Gənc idmançılarımıza uğurlar arzu edirik.

***Reyhan Nuriyeva,***
***UGİŞM-nin direktor müavini***

# HACIQABUL

№ 20 (679) 12 dekabr 2017-ci il


## Azərbaycan tarixini yazan və yaradan dahi



***Hər sözünün əvvəli Azərbaycan, xalq, millət olan, azərbaycanlı olması ilə hər zaman fəxr edən xalqının vətənpərvər oğlu, dövlətinin memarı və qurucusu kimi yaddaşlarda qalan ulu öndərimizin vəfatından 14 il ötür.***

Bu gün istər ölkəmizdə, istərsə də ölkəmizdən kənarda Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimləri keçirilir.

Dekabrın 12-də şəhər 10 saylı tam orta məktəbdə də ümummilli liderin anım günü münasibətilə tədbir keçirilmişdir.

Əvvəlcə Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunmuşdur. Ulu öndərin həyatı, ictimai fəaliyyəti haqqında videoçarxlar izlənilmiş, şagirdlərin ifasında dahi şəxsiyyətə həsr edilmiş şeirlər dinlənilmişdir. Anım günü ilə bağlı keçirilmiş tədbirdə Heydər Əliyevin Azərbaycan təhsilinə verdiyi töhfələrdən söz açılmış, təhsilimizin müasir inkişaf səviyyəsinə çatdırılmasında əvəzsiz xidmətləri qeyd edilmiş, təhsillə bağlı kəlamları səsləndirilmişdir.

***Nüşabə Fikrətqızı,***
***şəhər 10 saylı tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi***

## "Uşaqlar hüquqlarını bilirmi?", "Hansı hallarda uşaqların hüquqları pozulur" mövzusunda dəyirmi masa



Rayon Heydər Əliyev Mərkəzində "Uşaqlar hüquqlarını bilirmi?", "Hansı hallarda uşaqların hüquqları pozulur" mövzusunda dəyirmi masa keçirildi. Uşaqlara uşaq hüquqları, BMT-nin Uşaq Hüquqları Konvensiyası haqqında məlumat verildi. Uşaq hüquqları barədə kiçik video filmə tamaşa edildikdən sonra uşaqlarla onların hüquqları barədə müzakirə xarakterli söhbət keçirildi.

***Aytən Zülfəliyeva,***
***rayon Heydər Əliyev Mərkəzinin direktoru***

## Şövkət Ələkbərova- əvəzolunmaz müğənni

***Şəhər 4 saylı tam orta məktəbdə Şövkət Ələkbərovanın yaradıcılıq gecəsi keçirildi. Tədbirdə məktəbin pedaqoji və şagird kollektivi iştirak edirdi. Tədbirdə çıxış edən məktəbin təşkilatçısı Məryəm Nəhmədova, musiqi müəllimi Esmira Qasımova müğənninin həyat və yaradıcılığı haqqında ətraflı məlumat verdilər. Çıxış edən natiqlər bildirdilər ki, Şövkət Ələkbərova istər xalq, istərsə də bəstəkar mahnılarının bənzərsiz ifaçısı idi. O, səhnəyə özünəməxsus ifa tərzi, davranış qaydaları gətirmişdi. Məhz bu keyfiyyətlər, eləcə də keçirdiyi solo konsertlər, etdiyi qastrol səfərləri Şövkət xanımı sənət zirvəsinə ucaltdı, xalqın yaddaşına əbədi olaraq yazdı. Bu səfərlərin məqsədi Azərbaycanı, onun musiqisini, incəsənətini dünyaya tanıtmaq olub.***



Tədbirin gedişi ərzində şagirdlərin ifasında "Kəndimiz", "Axşam", "Qəbahətim böyükdür", "Küçələrə su səpmişəm", "Üzüyümün qaşı firuzədəndir", "Gedək üzü küləyə", "İntizar", "Sənsən ürəyim", "Bir xumar baxışlı", "Tez gəl", "Şən Azərbaycan", "Ay qız", "Çay", "Tələbəlik illəri", "Anam Azərbaycan" mahnıları səsləndirildi. Səsləndirilən mahnılar tədbir iştirakçılarında xoş anlar, xoş xatirələr yaşatdı.

***Məryəm Nəhmədova***

## Azərbaycan filmlərinin nümayişi davam etdirilir

***Rayon Heydər Əliyev Mərkəzində vətənpərvərlik mövzusunda olan "Cavad Xan" filmi nümayiş olunmuşdur.***

Sabir Rüstəmxanlının "Ölüm zirvəsi" romanının motivləri əsasında Rövşən Almuradlının rejissorluğu ilə çəkilən film XIX əsrin əvvəllərində öz oğulları ilə birlikdə vətən uğrunda Sisianovun başçılığı altında rus qoşunlarına qarşı mübarizə aparan və mərdliklə həlak olan xanlar xanı, cəsur sərkərdə Cavad Xan haqqındadır.

Film Mədəniyyət və Turizm Nazirliyinin sifarişi ilə "Bizim Kino" prodüser mərkəzində çəkilib. Filmin çəkilişləri 2017-ci ilin aprelində başlayıb, həmin ilin avqust ayına kimi davam etdirilib. Film üçün 58 dəqiqəni əhatə edən 20 musiqi yazılmışdır. Filmin premyerası Milli kino günündə Heydər Əliyev adına sarayda keçirilmişdir.

Rollarda: Cavad Xan (Nürəddin Mehdixanlı), Sisianov (Ramiz Novruz) və bir çox aktyorlar iştirak edirdilər.

***Bahar Abasova,***
***rayon Heydər Əliyev Mərkəzinin baş fond mühafizi***



## Yolunuz uğurlu olsun

A.Baxşəliyev adına Şorbaçı kənd tam orta məktəbində "Yolunuz uğurlu olsun" adlı ədəbi-bədii kompozisiya keçirilmişdir. Tədbirdə Rayon Təhsil Şöbəsinin, rayon Gənclər və İdman İdarəsinin əməkdaşları, mətbuat nümayəndələri, məktəbin müəllim və şagird kollektivi, kənd ağsaqqalları, valideyinlər iştirak etmişdir.

Tədbir yazıçı - publisist Alik Rzayevin "Mənim sevimli müəllimim" kitabının təqdimatına və Karate Federasiyasının "Sarı Kəmərinə" layiq görülmüş məktəbin şagirdlərindən idman yarışlarında I-II-III yerləri tutan idmançılara həsr olunmuşdu.

***K.Əsgərov,***
***Şorbaçı kənd tam orta məktəbinin direktoru***

## Elan

Hacıqabul rayon Aqrar İslahat Komissiyasının qərarı ilə Şahbazov Şahin Təhməz oğlunun adına verilmiş JN-0777, kodu 91000018 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

Ələtli kənd sakini Qənbərov İlkin Cəlal oğlunun adına verilmiş JN-0199, kodu 91004058 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

Rayon Aqrar İslahat Komissiyasının 30 avqust 1998-ci il tarixli qərarı ilə Ələtli kənd sakini Mehdiyev Xanbala Həsənbala oğlunun adına verilmiş torpağın mülkiyyətə verilməsinə dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

***

25 may 2011-ci ildə Navahı kənd sakini Həsənov Zaur Əlimərdan oğlunun adına verilmiş Daşınmaz Əmlakın Dövlət Reyestrindən 0212512 saylı Çıxarış itdiyi üçün etibarsız sayılır.

***

Baxışov Ağakərim Eldar oğlunun adına verilmiş JN-0060, kodu 91004028 olan Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.

## Allah rəhmət eləsin!

Hacıqabul rayon İcra Hakimiyyəti Başçısı Aparatının kollektivi Eldəniz və Xalis Həsənov qardaşlarına anaları
**Töhfənisə xanımın**
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

Rayon Təhsil Şöbəsinin müdiri Şükür Məmmədov və kollektivi Xalis və Eldəniz Həsənov qardaşlarına anaları
**Töhfənisə xanımın**
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

Rayon Təhsil Şöbəsinin müdiri Şükür Məmmədov və kollektivi iş yoldaşları Əzizə Musayevaya atası
**Ağahüseyn kişinin**
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

Rayon Təhsil Şöbəsinin müdiri Şükür Məmmədov və kollektivi iş yoldaşları Loğman Səmədova atası
**Baba kişinin**
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

Rayon Təhsil Şöbəsinin müdiri Şükür Məmmədov və kollektivi iş yoldaşları Təranə Həmidovaya atası
**İmanverdi müəllimin**
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

"Hacıqabul" qəzetinin redaktoru Xuraman Feyruzqızı Təranə Həmidovaya atası
**İmanverdi müəllimin**
vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

"Hacıqabul" qəzetinin redaktoru Xuraman Feyruzqızı və rayon Dövlət Arxivinin müdiri Vüsal Nağıyev Xalis Həsənova anası
**Töhfənisə xanımın**
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

YAP rayon təşkilatının sədri Hafiz Beşirov və kollektivi Eldəniz və Xalis Həsənov qardaşlarına anaları
**Töhfənisə xanımın**
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

"Hacıqabul" qəzetinin əməkdaşı Nazim Fətixanoğlu Eldar Rzayevə
**övladının və nəvələrinin**
faciəli vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.


**HACIQABUL**

**Baş redaktor:**
Xuraman Feyruzqızı

**Həmtəsisçi:**
Qəzetin jurnalist kollektivi
Qəzet "Hacıqabul" qəzetinin kompyuter mərkəzində yığılmışdır, "Son Dakika" çap evində ofset üsulu ilə çap olunmuşdur

Kapital Bank Hacıqabul filialı
İndeks: 66975
Lisenziya: № 022579
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**Ünvan:** Hacıqabul şəhəri, İ.Qayıbov küçəsi 4.
**Tel:** 4-32-00,
**Tiraj:** 1200